AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

XƏZƏR UNİVERSİTETİ

---

HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ

İstiqamətin şifri və adı 060209-Psixologiya

İxtisaslaşmanın adı Ümumipsixologiya

Psixologiya kafedrasının magistrantı

Məmmədzadə Aysel Oqtay qızı

Magistr elmi ixtisas dərəcəsi almaq üçün

# YENİYETMƏLƏRİN SOSİAL DAVRANIŞLARININ TƏNZİMİ VƏ ONLARA SOSİAL NƏZARƏTİN TƏŞKİLİNİN PSİXOLOJİ ƏSASLARI

mövzusunda

MAGİSTR DİSSERTASİYASI

Elmi rəhbər: Psixologiya üzrə fəlsəfə doktoru, dos.əv. Verdiyeva Ləman Ə.

Bakı 2018

MÜNDƏRICAT

GİRİŞ..........................................................................................................3
I. FƏSİL.YENİYETMƏLİK DÖVRÜNƏ ÜMUMİ BAXIŞ
1.1. Yeniyetməlik dövrünün əsas xüsusiyyətləri ....................................................7
1.2. Şəxsiyyətin formalaşması..........................................................................13
II. FƏSİL. YENİYETMƏLİK DÖVRÜNDƏ YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI
2.1 Yeniyetməlik dövründə yaşanan psixoloji hallar və yaş böhranı........................20
2.2 Yeniyetmələrin sosial psixoloji problemlərinin araşdırılması və həlli yollar.......24
III. FƏSİL. YENİYETMƏ VƏ GƏNCLƏRİN ÖZ AİLƏLƏRİNDƏ HƏYATA MÜNASİBƏTLƏRİNİN ÜZƏ ÇIXARILMASI İLƏ BAĞLI KEÇİRİLMİŞ EXPERİMENTAL TƏDQİQAT
3.1 Tədqiqatın strukturu ....................................................................................28
3.1.1 Tədqiqatın iştirakçıları................................................................................28
3.1.2 Tədqiqatda istifadə olunan klinik material və metodlar...................................28
3.1.3 Statistik analiz ..........................................................................................29
3.2. Tədqiqatda istifadə olunan yeniyetmə və gənclərin öz ailələrində həyata münasibətlərinin üzə çıxarılması testinin təhlili........................................................67
NƏTİCƏ .......................................................................................................68
TÖVSİYYƏLƏR ..............................................................................................71
ƏDƏBİYYAT SİYAHISI ....................................................................................72
ƏLAVƏ

# GİRİŞ

Mövzunun aktuallığı: İnsan doğulduğu gündən sosial mühitə daxil olur,bu mühitdə böyüyür və özünəməxsus inkişaf mərhələsi keçərək yetkin fərdə çevrilir.İnsanın inkişafında bir çox amillər bioloji,sosial, psixoloji və.s iştirak edir.Bunu nəzərə alaraq psixoloqlar düşünürlər ki,uşaq və yeniyetmələrin inkişafında iştirak edən ən önəmli sosial qrup-ailədir.Ailə-sosial mövqenin formalaşmasına təsir edən ən əsas amillərdən biridir.Hər bir ailənin ümumi cəhətləriylə yanaşı həm də özünəməxsus və fərdi xüsusiyyətləri vardır. Yeniyetməlik dövründə ailənin bütün üvzlərinin sosial,şəxsi və ailəvi münasibətlərinin sınağa çəkildiyi dövrdür.

Şəxsiyyətin formalaşmasında ailənin xüsusi ilə valideynlərin rolu əvəzsizdir. Şəxsiyyət sosial mühitdə münasibətlər quraraq, özünü tanıyaraq formalaşmağa başlayır. Ailədə uşağın sosial inkişafına təsir edir. Ailədə uşaqların sosial cəhətdən inkişafı müxtəlif amillərlə şərtlənir, onlardan əsas ikisi aşağıda qeyd olunmuşdur:

Birinci tip amillər sırasına ailə münasibətləri ata və ananın münasibəti, valideyn və uşaq münasibəti, bacı və qardaş münasibətləri aiddir.

İkinci tip amillər sırasına ailənin maddi vəziyyəti, yaşayış şəraiti, quruluşu, sosial vəziyyəti, cəmiyyətdə yeri daxil edilir.İkinci tip amillər uşaqların tərbiyəsinə müəyyən təsir göstərir. Lakin psixoloji tədqiqatların nəticəsində görünür ki, onlar gənc nəslin tərbiyəsində həlledici rol oynamırlar.

Övlada qayğı-diqqətlə yanaşı valideynlər yeniyetmənin "Mən" konsepsiyasının, tərbiyəsinin,hisslərinin, düşüncələrinin, gələcəkhəyat planlarının,təfəkkürünün, başqaları ilə münasibətlərinin formalaşmasında mühüm rol oynayırlar.Valideynlər arasında münasibət pozularsa,yeniyetməyə bu vəziyyət pis təsir göstərər. Özünə yaxın bildiyi insanların mübahisəsi onda mənəvi və psixoloji cəhətdən narahatlıq yaradar. Xüsusi ilə bu münbahisəyə özü səbəb olubsa günahkarlıq hissinə qapılar.Yeniyetmələrdə olan əsəb gərginliyinin,həyəcanın,aqressiyanın, narahatçılığın yaranmasında belə situasiyalar az rol oynamır.Yeniyetmələr üçün ailə üzvləri arasındakı münasibətlər vəvalideynlərin ona qarşı münasibəti çox vacibdir.Bəzi hallarda yeniyetmənin aqressiv davranışına valideynlərin kobud cəza növlərini

seçmələri də səbəb olur.Ailədə fiziki zorakılıq yeniyetmədə valideynlərinə,özünə,yaşıdlarına, cəmiyyətə qarşı neqativ hisslər yaradır.İndiki dövrdə yeniyetmələrin şəxsiyyətinin inkişafı, formalaşması, davranışlarında müxtəlif dəyişikliklər özünü büruzə verir və bu araşdırılan mövzunu yeterincə aktual edir.

Mövzunun işlənmə səviyyəsi: Apardığım araşdırmalar nəticəsində qeyd edə bilərəm ki, yeniyetməlik dövrü ilə bağlı bir çox tədqiqatlar aparılmışdır.Yeniyetməlik dövrünə təsir edən faktorlar fərqli yanaşmalardan ələ alınmışdır. Azərbaycan Respublikasında Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, S.İ.Seyidov, M.Ə.Həmzəyev,R.Cabbarov və başqalarının yeniyetməlik dövrü ilə bağlı geniş araşdırmaları olmuşdur.

Xarici ölkə psixologiyasındada yeniyetməlik dövrünün araşdırılmasna həsr olunmuş çoxsaylı tədqiqat işləri vardır. Bu baxımdan Türkiyədə aparılan tədqiqat işlərindən Ebra Uraloğlunun il 2017 “Ergenin anne-baba ve yakın arkadaşı ile bilgi paylaşma ve sır saklama davranışı ile psikolojik esenlik hali: Değişken ve birey odaklı inceleme”, Pınar Erçelikin il 2016 “Beliren yetişkinlik döneminde temel psikolojik ihtiyaçların karşılanmasının ve kimlik statülerinin iki sosyal çevrede incelenmesi.”, Esen Dinçel il 2006 “Ergenlik dönemi gelişimsel ödevleri ve psikolojik problemler”, Prof. Dr. Pınar Bayhan, Arş. Gör. Sonnur Işıtan “Ergenlik Döneminde İlişkiler: Akran ve Romantik İlişkilere Genel Bakış”, Dr. Ali Eryılmaz “Ergenlik döneminde stres ve başa çıkma”, Doç. Dr. Günay Saka “Adolesan dönemi ve sorunları”, Ümit Morsünbül “Ergenlik döneminde internet bağımlılığı: Kimlik stilleri ve seçeneklerin saplantılı araştırılması ile ilişkiler”, F. Ebru Suner “Farklı liselerdeki ergenlerin benlik saygısı, akademik başarı ve sürekli kaygı düzeyi arasındaki ilişki” Yrd. Doç. Dr Mustafa Otrar “Tek ebeveynli egenlerde algılanan yalnızlık düzeyleriyle öfke ifade tarzları arasındaki ilişkinin incelenmesi”,Uzm.Dr.Evrim Akçan Parlaz, Uzm. Dr. Nurdan Tekgül, Hem. Emine Karademirci, Doç.Dr.Kurtuluş Öngel “Ergenlik Dönemi: Fiziksel Büyüme, Psikolojik ve Sosyal Gelişim Süreci”, Tezan Bildik, Nagehan Büküşoğlu, Hande Kesikçi “Çalışan ergenlerin psikososyal sorunları ve kendi çözüm önerileri”, Nilay Pekel Uludağlı, Melike Sayıl “Orta ve İleri Ergenlik Döneminde Risk Alma Davranışı:

Ebeveyn ve Akranların Rolü" və s. qeyd etmək olar. Amerikada aparılan tədqiqat işlərindən Nirajan Trapa "Perceptions of teenagers and parent about impacts of facebook on their relationship", Patrick Oneill "Investigating the 1980s Hollywood Teen Genre: Adolescence, Character, Space",Ellen Johanna Helsper"Internet use by teenagers: Social inclusion, self-confidence and group identity" və s. qeyd etmək olar.

Tədqiqatın obyekti: Tədqiqatın obyekti olaraq16-17 yaşlı (9-11 ci sinif) 90 iştirakçının (30- 9-cu sinif, 30-10-cu sinif, 30- 11-ci sinif) psixoloji problemlərin araşdırılması əsas götürülür.

Tədqiqatın predmeti: Yeniyetməlik dövründə baş verən psxioloji problemlərin araşdırılması, ortaya çıxarılması və sosial davranışlarının tənziminin tədqiq edilməsi.

Tədqiqatın məqsədi: Yeniyetməlik dövründəki sosial problemlər araşdırılaraq, bu dövrün psixi inkişafının psixoloji xüsusiyyətlərinin öyrənilməsinə dair təsəvvürləri tədqiqat obyektinə çevirmək,yeniyetmələrin psixoloji xüsusiyyətlərinin məxanizmlərini müəyyənləşdirmək.

Tədqiqatın fərziyyəsi: Tədqiqatda belə bir fərziyyə əsas götürülür ki, yeniyetməlik dövründə ailənin maddi və mənəvi cəhətdən övlad üzərində təsiri ilə yanaşı, yeniyetmələrin intellekt səviyyəsi, bu dövrdəki davranışları, cəmiyyətdəki yerləri, gələcək həyatları ilə bağlı verəcəkləri qərarlar, peşə seçimi bu dövrün xarakterik xüsusiyyətlərini əks etdirir.

Əsas fərziyyəyə uyğun olaraq köməkçi fərziyyələrdə götürülmüşdür. Yeniyetməlik dövrünün düzgün inkişaf etməsi ətraf mühitin təsirindən də aslıdır.Tək tərəfli ailədə böyümüş yeniyetmədə ata və ya ana modelinin boş qalması onun şəxsiyyət kimi inkişaf etməsində neqativ təsir göstərir.

Tədqiqatın vəzifələri: Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

1. Problemlə bağlı mövcud ədəbiyyatın təhlili, mövzunun öyrənilməsinə həsr olunmuş istiqamətlərin təsnif edilməsi, problemin nəzəri əsaslarının müəyyən edilməsi;
2. Yeniyetmələrin üzərində ailənin təsirinin araşdırılması

3. Yeniyetmə- valideyn münasibətlərinin araşdırılması
4. Yeniyetməlik dövrünün mahiyyətinin açıqlanması, yeniyetməlik dövrünün inkişafına təsir edən sosial-psixoloji amillərin araşdırılması
5. Yeniyetməlik dövründə görülən problemlərin ortaya çıxarılması
6. Valideynın təhsil səviyyəsinin, maddi və psixoloji vəziyyətinin yeniyetmə üzərində təsirləri
7. Yeniyetməlik dövürünün mühüm əhəmiyyət kəsb edən amillərin qeyd edilməsi
8. Bu dövrdə valideynlərin tutum və davranışlarının qeyd edilməsi
9. Yeniyetmələrin təhsil müddətində yaranan problemlərinin qeyd edilməsi
10. Yeniyetmələrə sosial nəzarətin təşkilinin psixoloji əsaslarının qeyd edilməsi

Elmi yenilik: İndiyə qədər yeniyetməlik ve yeniyetmələrlə aparılan tədqiqat işlərindən fərqli olaraq yeniyetməlik dövrünə bilavasitə təsir göstərən amillər qeyd olunaraq, onların sosial davranışlarının tənzimi üçün nəyin əsas götürüldüyünün qeyd edilməsi.

Tədqiqatın metodoloji əsasları və metodikası: Yeniyetməlik dövrünün inkişafı və şəxsiyyətin formalaşması olduqca mürəkkəb psixoloji qanunauyğunluqlara tabedir. Bu baxımdan tədqiqatda şəxsiyyətin formalaşması ilə bağlı ümumpsixoloji müddəalara əsaslanmışdır. Tədqiqata 90 yeniyetmə cəlb olunmuşdur. Tədqiqatda müşahidə və eksperiment metodundan, eləcə də onun nəticələrinin adekvatlığını təmin etmək üçün riyazi-statistik hesablamalardan istifadə edilmişdir.

Tədqiqatın nəzəri əhəmiyyəti: Az öncə qeyd etdiyimə əsaslanaraq yeniyetməlik dövrünün inkişafı olduqca mürəkkəb proseslərdən biri olduğuna görə əldə olunmuş nəzəri müddəalar ümumi psixologiya, ailə psixologiyası, sosial psixologiya sahəsi üzrə təhsil alan tələbələrin, o cümlədən bu sahə ilə maraqlanan hər bir kəs üçün yeni elmi biliklərlə zəngindir.

Tədqiqatın praktik əhəmiyyəti: Tədqiqatın sonunda əldə olunmuş nəticələrlə yeniyetməlik dövründəki şəxslərlə münasibətlərin qurulmasına, şəxsiyyətin bu dövrdə formalaşmasına təsir edən amillərin ortaya çıxarılmasında rolu vardır.

Dissertasiyanın strukturu: Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I. FƏSİL.YENİYETMƏLİK DÖVRÜNƏ ÜMUMİ BAXIŞ

## 1.1. Yeniyetməlik dövrünün əsas xüsusiyyətləri

Yeniyetməlik dövrü somatik dəyişikliklərlə başlayan bir çox problemlərlə üzə çıxan və gəncin yetkinliyinin qazanması ilə sonlanan bir dövrdür. Yeniyetməlik dövrünü "keçid", "təhlükəli", "dönüş" və s. dövrü kimi də, adlandırırlar.Yeniyetməlik dövrünü uşaqlıqla böyüklük arasında yer alan ruhi inkişaf və həyata hazırlıq dövrü kimi qeyd etmək olar.Yeniyetmə dövrünün keçid dövrü olduğunu nəzərdə saxlamaq lazımdır. Çünki yeniyetmə nə uşaq, nə də böyükdür onların aralığında yerləşən bir dövrü əhatə edir. Bu dövr özünün praktik əhəmiyyəti, pedaqoji çətinlikləri, ruhi inkişafındakı dəyişiklikləri, xarici görnüşündəki gözə çarpacaq yenilikləri və şəxsiyyətinin inkişafında baş verən psixoloji problemləri ilə diqqəti cəlb edir. Yeniyetməlik dövrünün mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin"uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir" müddəası çox böyük əhəmiyyət kəsb edir. A.N.Leontyevin yazdığı kimi, psixi inkişafın müəyyən mərhələsində "onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişdirməyə səy göstərir. Uşağın həyat tərzi ilə, artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır. Buna uyğun olaraq, onun fəaliyyəti də yenidən qurulur. Bununla da onun psixi həyatının inkişafının yeni mərhələsinə keçid başa çatır.( 4, səh.200-202) Bu yaşda fiziki inkişafda da bir çox dəyişikliklər baş verir, orqanizmdə yeniyetməyə lazım olan möhkəmlik yaranır, əsəb sistemi, əzələ-damar sistemi sürətlə inkişaf edir, qız və oğlanların cinsiyyət üzvlərində dəyişikliklər baş verir və gənc yavaş-yavaş öz bədənini tanımağa və qəbullanmağa başlayır. Bunların hamısı yeniyetmənin psixologiyasına təsir edir. Keçid dövrü olan bu mərhələdə gəncdə fizioloji, bioloji və psixoloji sahələrdə olduqca sürətli dəyişikliklər yaranır. Bu sürətli dəyişikliklərlə əlaqəli olaraq yeniyetmə ruhi və emosional dünyasında, psixologiyasında dəyişikliklərə məruz qalır və buna öyrəşməyə

çalışan yeniyetmə bir çox çətinliklərlə üzləşir.Hər keçid dövründə olduğu kimi, yeniyetməlik də çətin bir keçidin yaşandığı mərhələdir.

Yeniyetməlik dövrü 11-21 yaşlar arasını əhatə edən çətin bir dövrdür. Bu mərhələni həm də fırtına-gərginlik dövrü də adlandırmaq olar. İnsanın bütün həyatının bir dövrünü əhatə edərək sağlam olmaqla yanaşı qarışıq bir dövrdür. (50) Sürətli fiziki dəyişikliyin başladığı dövrdə yeniyetmənin dəyişən bədəninə uyğunlaşma müddəti də başlamış olur. Fiziki inkişafa bağlı dəyişikliklər fərqli surət vəproblemlərlə ortaya çıxa bilər. Bu fərqliliklər yeniyetmənin sosiallaşma müddətinə təsir göstərər.Nümunə olaraq deyə bilərəm ki, sosial çevrəsində bir çox problemlərlə qarşılaşma təhlükəsi yaranır. Ailə və dostları arasında anlaşılmama, hərəkət və davranışlarının çevrəsi tərəfindən qəbul edilməməsi,məktəb mühitindəki problemlər və s.

Yeniyetməlik dövrü boyun sürətlə inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin yüksəlməsi, daxili sekresiya vəziləri fəaliyyətinin kəskin surətdə güclənməsi və cinsi yetişkənliyin baş verməsi ilə xarakterizə olunur. Uşaqlıqdan yeniyetməlik dövrünə keçən andan orqanizmində əsaslı dəyişikliklər baş verir: hipofiz və qalxanabənzər vəzilərin fəaliyyəti sürətlənir bunun nəticəsində orqanizmdə maddələr mübadiləsi yüksəlir, bədənin aşağı və yuxarı ətrafları sürətlə inkişaf, hərəkətləri yöndəmsiz və kobud olur. Yeniyetməlik dövründə nəzərə çarpan ən mühüm cəhətlərdən biri fiziki inkişafla əlaqədar cinsi yetişkənliyin baş verməsidir.

Yetkinlikdə ortaya çıxan somatik dəyişikliklər: Sürətli boy uzanmasıədəbiyyatdan məlum olduğu kimi, 9-10 yaş arasında oğlanlarda boy artımı təxminən 4,4 sm olduğu halda,11 yaşında bu artım 5,3 sm, 12 yaşında – 6,1 sm-ə, 13 yaşında -4,7 sm-ə, 14 yaşında – 7,2 sm-ə, 15 yaşında – 6,2 sm-ə çatır.Rəqəmlərdən göründüyü kimi, oğlanlarda ən yüksək boy artımı13-14 yaş arasında baş verir.

Qızlarda isə boyun artımı daha tez başlayır və həmin artım tez də aşağı düşür. 9 yaşlı qızlarda boy artımı 3,8 sm, 10 yaşda – 6,21 sm, 11 yaşda – 7,17 sm, 12 yaşda – 5,43 sm, 13 yaşında təxminən 6 sm-ə çatır. Bu zaman artım əvvəlki illərə nisbətən az olsa da qənaətbəxşdir. 14 yaşında boy artımı 3,7sm-ə, 15 yaşında isə 2,3 sm-ə enir. Rəqəmlərdən göründüyü kimi, boy artımı qızlarda oğlanlara nisbətən tez başlasa da, sonradan əsaslı şəkildə aşağı düşür. (7, səh. 469-470)

Boy ilə birlikdə yeniyetməlik dövrünün inkisafında çəkidədə müəyyən dəyişikliklər baş verir. Beləki, 9 yaşlı oğlanların çəkisi orta hesabla 26,3 kq, 10 yaşda- 29,0 kq, 11 yaşda- 32,1 kq, 12 yaşda-36,0 kq, 13 yaşda –39,2 kq, 14 yaşda – 45,5 kq,15 yaşda – 51,9 kq olur. Rəqəmlərdən göründüyü kimi, yeniyetməlik dövründə oğlanlarda çəkininartması qeyri-bərabər şəkildə gedir.

Qızlarda da çəkinin artması təxminən eyni şəkildə gedir.9 yaşlı qızların çəkisi təxminən 25,28 kq, 10 yaşda-28,3 kq, 11 yaşda- 32,0 kq, 12 yaşda- 36,97 kq, 13 yaşda- 41,9 kq, 14 yaşda- 47,5 kq, 15 yaşda- 50,6 kq-a bərabər olur. (7, səh. 469-470)

Bu dövrdə yeniyetmədə bədən nisbətləri də, dəyişir. Əllər və ayaqlar böyüyür və uzanır.Oğlanlarda səs dəyişir və qalınlaşır.Bədənin yağ paylaşımında cinsiyyətə xas dəyişikliklər ortaya çıxır, qızlarda çanaq bölgəsi genişləyərkən oğlanlarda sinə bölgəsində genişləmə olur.Oğlanlarda əzələ inkişafı sürətlənir.Dəridə yağlanma artır. Bu yağlanma sızanaqların ortaya çıxmasına səbəb olur.Bu sızanaqların yaranması yeniyetmələr üçün demək olar ki, ən narahat verici hal kimi nəzərə çarpır.Qız və oğlanlarda tüklənmə başlayır.Cinsi orqanlarda cinsiyyətə xas dəyişikliklər ortaya çıxar.

Yeniyetməlik dövrü həm yeniyetmə üçün, həm də yeniyetmənin ailəsi üçün çətin bir mərhələdir.Bu dövrdə ailə yeniyetməni başa düşməkdə çətinlik çəkirsə, yeniyetmə ətrafındakıların onu başa düşmədiyini düşünür. Valideyn bu dövrdə uşağını nə qədər tanıyarsa və bu mərhələnin xüsusiyyətlərini nə qədər dərindən bilərsə, valideyn-yeniyetmə münasibətləri bir o qədər mülayim olar. Valideynlərin bu mərhələ haqqında məlumatlı olmaqları, lazım gələrsə araşdırıb məlumat toplayaraq bu dövrə uyğun övladıyla münasibət qurması daha yaxşı olardı. Yeniyetməlik dövrünə girmiş şəxs özünü fərqli hiss edir, bir çox problemlərlə qarşılaşır və çox zaman özünü ifadə etməkdə çətinlik çəkir. Bu dövrdə emosionallıq, fəallıq,oyanıqlıq, aktivlik daha çox üstünlük təşkil edir. Bu inkişaf mərhələsində yeniyetmələr çox həssas olurlar və müstəqil olmağa can atırlar. Onların psixoloji əhval-ruhiyyələri münasibətlərə və içərisində yer aldıqları mühitə görə dəyişir.

Yeniyetmələrdə əxlaqi inkişafda bu dövrdə nəzərə çarpacaq dərəcədə dəyişir.Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yeniyetməlik yaşı dövründə özünəməxsus «əxlaq məcəlləsi» əmələ gəlir(Ə.Ə.Əlizadə). Bu «məcəllə» onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu «yoldaşlıq məcəlləsi» adlandırırlar. Bu

«məcəlləyə» görə yoldaş yoldaşının hörmətini saxlamalı,qayğısına qalmalı,ona lazım olduğu anda kömək etməli dostunu müdafiə etməlidir. Professor Ə.Əlizadənin qeyd etdiyi kimi, hörmət, qayğı, müdafiə anlamlarının yeniyetmələr üçün öz yozumu, öz mənası, öz təfsiri var. Bu yozuma görə dərs vaxtı, imtahan zamanı yoldaş yoldaşa yeri gələrsə köçürməyə şərait yaratmalı, nəyin bahasına olur-olsun onun tərəfini saxlamalıdır. «yoldaşlıq məcəlləsində» məhz bu cür sərt «sanqsiyalar» əsas yer tutur.(7,səh.474)

Yeniyetməlik dövründə hissi meylin formalaşması: Yeniyetməlik dövründə yetkinliyə meylin yaranması və bu hissin formalaşması müxtəlif amillərin təsiri altında baş verir.Yetkinlik hissinin yaranması birinci növbədə yeniyetmənin fiziki inkişafında dəyişikliklərlə özünü göstərir.Yeniyetmənin xarici görkəmi özlərindən yaşca böyük şəxslərin xarici görkəminə oxşamağa başlayır. Boy və gücləri artır. Bu dəyişikliyi görən yeniyetmədə yetkinlik meyli artıq yaranmağa başlamış olur. Yeniyetmələrdə yetkinlik hissinin yaranmasında onun daxil olduğu sosial qrupun da müəyyən rolu vardır. Bu qrupda çox vaxt yaşca böyük insanların olması və onların yeniyetməni qəbul etməməsi yetkinlik hissini bir daha gücləndirir.Yetkinlik hissinin inkişafında yeniyetmənin özü üçün davranış etalonu kimi seçdiyi nümunələr vardır və bu davranışlar yeniyetmə üçün mühüm əhəmiyyət daşıyır. Oğlanların formalaşan kişi idealında cəmiyyət arasında deyilən kimi qeyd etsək "kişiyə" xas olan xüsusiyyətlər yer tutmağa başlayır.Bu xüsusiyyətlərəgüc,qüvvət, iradə dostluğa və yoldaşlığa sədaqət aid ola bilər. Yeniyetmə oğlan başqa insanları və özünü qiymətləndirərkən məhz həmin xüsusiyyətləri əsas götürürlər. Yeniyetməlik dövründə qızlarda müəyyən qədər dəyişir. Onların davranışlarında qadınlığa xas olan xüsusiyyətlər mühüm rol oynamağa başlayır. İdealında olan xanım obrazına girməyə çalışırlar. Ya analarını və ya hər hansı bir tanınmış simanı özlərinə ideal seçərək onların davranışlarını sərgiləyirlər.Bu dövrdə qızlar daha çox diqqət və qayğı tələb edirlər. Bu diqqəti ilk öncə ailələrində atalarından gözləyirlər. Atasından görə bilmədiyi diqqəti cəmiyyətdə axtarmağa başlayarlar.

Təlim fəaliyyətinin yeniyetməlik dövrünə təsiri: Təlim fəaliyyəti yeniyetmələrin qavrayışına yüksək təsir göstərir və onların inkişafını sürətləndirir. Bu dövrdə yeniyetmələrin qavrayışı geniş əhatəli olur. Kiçik yaşlı məktəblilərdən fərqli olaraq, yeniyetmələr məktəb dərslərində lazımi materialları ümumiləşdirərək sistemləşdirməyə

çalışırlar.Yeniyetmələrdə zaman, məkan və hərəkət qavrayışı inkişaf edir. Məsələn, tarixi günləri yadda saxlaya bilmək üçün yeniyetmə onu müəyyən hadisələrlə əlaqələndirərək beyinlərinə həkk edir. Belə olduğu halda yadda saxlama daha effektli hal alır.

Yeniyetməlik dövründə hafizənin inkişafı: Yeniyetməlik dövründə hafizənin inkişafıda mühümdür. Məntiqi hafizəinkişaf etməyə başlayır. Bu dövrdə məntiqi inkişaf etdirəcək fəaliyyətlərə yönəlirlər Daha çox zehni inkişaf eletdirəcək məntiqi testlər və məşğuliyyətlər axtarırlar. Yeniyetmələr məntiqi və ixtiyari hafizədən istifadə etməyə üstünlük verirlər.

Yeniyetməlik dövründə diqqətin inkişafı: Yeniyetməlik dövründə diqqətin inkişafında da, müəyyən dəyişikliklər baş verir.Yeniyetmənin təlim müddətində baş verən dəyişikliklər tələbat və maraq dairəsinin artması, yeniyetmənin ayrı-ayrı fənnlərə, müəllimlərə münasibəti,müəllimlərdə şəxsiyyət və məlumat təcrübəsinə, fənnlərə qarşı istəyin olub-olmaması,məktəblə bağlı problemlerin yaranması keçirdiyi psixi hallar, yeni və fərqli təəssüratların yaranması, cinsi yetişkənliyin başlanması ilə əlaqəli təəssüratlar, yaşlılıq hissi ilə bağlı problemlər və s. diqqətin inkişafına, mənfi təsir göstərərək nəzərə çarpacaq dərəcədə özünü biruzə verir. Bu dövrdə diqqətin yayınması hallarda baş verir. Yeniyetmələr çox aktiv olduqlarından diqqətlərini cəmləməkdə əziyyət çəkirlər. Bu ən çox məktəb dərslərində və ev tapşırıqlarını yerinə yetirməkdə özünü biruzə verir. Dərsdə yerində sakit otura bilmir, dərsin gedişinə mane olmağa çalışırlar.Ev tapşırıqlarından qaçınmaq istəyi yaranır və özlərindən bəhanələr uyduraraq çıxış yolları axtarmağa başlayır ətrafındakılarıda buna inandırmağa cəhd edirlər.Uğur yetkinlik dövründə düşə bilər. Səbəbi yeniyetmələrdə yayılan məlumatları toplaya bilməmək, dərs çalışmaq üçün lazımi motivasiyanın təmin olunmamasını misal kimi göstərə bilərik. Daima xəyal dünyasında yaşadıqları üçün, diqqəti dərslərinə yönəldə bilməzlər və bundan şikayət edərlər. Yeniyetmələr diqqət mərkəzində olmaqdan xoşlanırlar. Ətrafındakı insanların onlara fikir verməyini, hamı tərəfindən bəyənilmək hissi vardır.Yeniyetmələr həyəcanlı və tələsik olurlar. Bir çox işlərini tələsik bitirmək üçün can atırlar.

Yeniyetmələrdə yaradıcı təxəyyül: Yeniyetmələrdə yaradıcı təxəyyüldə inkişaf edir.Yeniyetmələrin təxəyyülünün inkişafı materiallarını daha səmərəli, özlərinə uyğun şəkildə mənimsəmələrinə imkan verir. Dərs materiallarını daha yadda qalan yollarla

öyrənməyə başlayan yeniyetmələrdə əldə etdikləri bu yeni bilikləri özlərinə uyğun şəkildə hafizələrinə həkk olunur. Anlama prosesində irəliləyiş özünü biruzə verir.

Yeniyetmələrdə məntiqi inkişaf: Gəncin düşüncə sahəsində ortaya çıxan dəyişikliklər bu dövrün ən əhəmiyyətli xüsusiyyətlərindən biri hesab olunur. Yeniyetməlik dövrü, bu dövrdə beyində ortaya çıxan dəyişikliklərlə əlaqədar olaraq yeniyetmənin uşaqlıqla müqayisədə daha geniş düşünə bilməsini təmin edir və nəticədə yetkinlərə məxsus düşüncə bacarığı qazanır. Bu dövrdə yeniyetmə kiçik yaşlarındakı düçüncə tərzinə sahib olmur, düşüncə tərzi dəyişir və yenilənir. Demək olar ki, fikirləri hər an dəyişə bilər. Bunun nəticəsi kimi ani qərarlar verə və ya verdiyi qərarlardan tez peşman ola bilirlər. Bu dövrdə uşaqlıqdakı konkret düşünmənin yerini mücərrəd düşünmə bacarıqları alır. Beləcə yeniyetmə:

1. Müxtəlif suallar verir, fərqli ehtimallar üzərində düşünməyə başlayır.
2. Mücərrəd anlayışlar üzərində düşünər.
3. Öz düşüncələri üzərində düşünər ama bunları çox zaman biruzə verməz.
4. Başqalarının fikirlərini anlamağa başlayar.
5. Bir fikrin üzərində uzun müddət mübahisə edə bilər.
6. Fərqli stiuasiyalarda fərqli tutumlar sərgiləyə bilər.

Yeniyetmələrdə şəxsiyyət inkişafı: Yeniyetmənin "mən kiməm" sualına cavab axtarma müddəti şəxsiyyətin inkişafı dövründə davam edər və nəticədə özü ilə, əlaqələri və həyat forması uyğun öz fikirlərinə sahib bir nəzəriyyə meydana gətirər. Özünün necə bir insan olduğu ilə bağlı qaydalar inkişaf etdirər, bu qaydaları sınayar, dəyişdirər ya da bu qaydalara uyğunlaşmağa çalışar. Özünə baxışı gedərək bir bütünlük və davamlılıq qazanar. Günbəgün özünü daha çox və yaxından tanımağa başlayar.Bu inkişaf müddəti gəncin zaman-zaman qərarsızlıqlar yaşadığı, ana-atanın hər zamankından fərqli davranış formaları ilə qarşılaşdığı, özünə uyğun təcrübələr etdiyi bir dövr ola bilər. Bu dövr ümumiyyətlə yeniyetmənin müstəqilliyini qazanması ilə sona çatar.Yeniyetmələr bu yetkinliyə fərqli yaşlarda çatarlar. Xüsusilə də təhsil müddətinin uzanması gənclərin məsuliyyət almaq yaşının gedərək artmasına, daha uzun müddət ana-ataya iqtisadi baxımdan asılı qalmasına səbəb ola

bilir. Ancaq ana-atalarunutmamalıdır ki,yeniyetmələr məsuliyyət götürməyəbaşladığı anda çox vaxt öz ana-atalarına bənzər şəxsiyyətlər ortaya qoymağa başlayacaqlar.

Yeniyetməlik dövrü bir yetkinliyə keçid dövrü olduğuna görə məqsədə çatmaq üçün edilən və ya edilməsi lazım olan davranışlar,əsas götürülən hədəflər bu dövrə xas olmalıdır. Yeniyetmələrə xas bu hədəf və davranışlara qısaca nəzər yetirək:

1. Hər iki cinsdən olan insanlarla yeni və daha yetkin əlaqələr qurmağa çalışır.
2. Cinsiyyətini oxşar sosial rollara uyğunlaşdıraraq yetkin bir kişi və ya qadın şəxsiyyətini qazanmağa çalışır
3. Özünə uyğun bir şəxsiyyət formalaşdırır və onun qaydalarına əməl edir.
4. Öz bədənini qəbul edir.
5. Əsasən ana-ata və digər özlərindən yaşca böyük olan şəxsiyyətlərə qarşı bağlılıq yaranır.
6. İkili münasibət qurmaq və qarşı tərəfə qarşı hiss edilən duyğusal bağlantı.
7. Özünə uyğun peşənin seçilməsi, o peşə ilə əlaqədar gələcəklə bağlı planların qurulması.
8. Sosial cəmiyyətdə məsuliyyət qazanmağa can atmaq.
9. Hər kəs tərəfindən qəbul edilən əxlaq sisteminə uyğunlaşmaq istəyi.
10. Sosial mühitdə və dost çevrəsində arzu olunan şəxsə çevrilmək.

Yeniyetmənin ən çox çatmağa çalışdığı hədəflər bunlardır. Davranışların əhəmiyyətli bir qisminin altında yatan əsas qüvvə bu hədəflərdən irəli gəldiyini qeyd etmək lazımdır.

## 1.2. Şəxsiyyətin formalaşması

İlk öncə şəxsiyyətin formalaşması və inkişafına keçmədən yaş dövrlərinin təsnifatına nəzər yetirək.

Yeni doğulmuş uşaq ______________________1-2 ay

Çağalıq ___________________________________2 ay-1 yaş

Körpəlik _________________________________1-3 yaş

Məktəbəqədər ____________________________3-6 yaş

Kiçik məktəbli ____________________________6-10 yaş

Yeniyetməlik gənclik (birinci dövr)___________10-15 yaş

Böyük məktəbli (ikinci dövr)________________15-17 yaş

Yetkinlik ________________________________17-21 yaş

Birinci dövr _______________________________21-35 yaş

İkinci dövr ________________________________35-60 yaş

Yaşlı adam ________________________________60-70 yaş

Qocalıq ___________________________________75-90 yaş

Uzun ömürlülər ____________________________ 90 və daha çox (7,səh.243)

Şəxsiyyətin formalaşması yeniyetməlik dövründə başlayır və yetkinlik yaş dövründə tamamlanır. Şəxsiyyətin formalaşması bir çox problemin əsasəndə sosial və psixoloji problemlərin özünü biruzə verdiyi uzun bir dövrü əhatə edir. Şəxsiyyətin formalaşmasının mərhələlərini aşağıdakı bölmələr vasitəsiylə daha aydın izah etmək mümkündür.

Şəxsiyyət, onun inkişafi və tərbiyəsi: Şəxsiyyət sözü latın dilində "persona" mənasında işlənən bir sözdür. Bu söz əvvəllər qədim yunan teatrlarında aktyorların üzünə taxdığı maskanı ifadə edən bir söz kimi işlədilirdi.Bu termin ilk zamanlar teatr fəaliyyətində gülməli və ya faciəvi obrazları göstərmişdir. Burdan yola çıxaraq deyə bilərik ki, "şəxsiyyət" ilkin mənasında müəyyən rol oynayan sosial obraz olmuşdur. (8,səh. 156)

İnsan, bioloji varlıq kimi digər canlılardan fərqliliyi onun şüurla və nitqlə əhatə olunması, əmək bacarığı ilə digərlərindən fərqlənməsi, ətraf aləmi tam dərk edərək, ona fəal təsir edib dəyişə, yeniliyə bilməsidir. Bir başqa tərəfdən nəzər yetirsək insan həm də ictimai varlıq hesab olunur. Şəxsiyyətin çox yönlü olması onun başqaları ilə geniş əlaqələrindən, ətraf mühit və cəmiyyətlə münasibətlərinin aktivliyindən asılıdır. Şəxsiyyətin ünsiyyət dairəsi genişləndikcə, ictimai əlaqələr aləminə daha çox daxil olur, onun mənəvi aləmi daha çox zənginləşir və inkişaf edir.Cəmiyyətdə formalaşan insanın əlaqələr sistemi insanlarla münasibətində, ətraf mühitlə əlaqəsində, özünə qarşı münasibətində ortaya çıxır.

Şəxsiyyətin inkişafına daxili və xarici amillər təsir göstərir:Daxili amillər hansılardır? –Buraya genetik, bioloji, fiziki, fizioloji amillər daxildir. Bu cəhətdən

daxili amillər insanın şəxsi fəallığını, şəxsi marağını, insanlarla ünsiyyət və münasibətini də özündə birləşdirir.

Xarici amillər hansılardır?- fərdin müəyyən mədəniyyətə, sosial-iqtisadi sinfə və ailə mühitinə məxsusluğu. Bu baxımdan xarici amillər ictimai mühiti, kollektivi, ictimai qrupları, tərbiyəvi təsirləri də özündə birləşdirir.

Tədqiqatçıların əksəriyyəti hesab edir ki, həyatı boyu formalaşan, özünəməxsus xüsusiyyətlərə malik, təfəkkürü, davranışları, hiss və düşüncələri, sosial münasibət və ünsiyyəti olan insan şəxsiyyət adlanır.Şəxsiyyət ilk öncə məktəbəqədər yaş dövründə doğulur. 3 yaşından etibarən özünü Mən kimi tanımağa başlayır. Şəxsiyyət ikinci dəfə yeniyetməlik yaşı dövründə doğulur. L.İ.Bojoviçin fikrincə, "şəxsiyyəti səciyyələndirmək imkanı verən ikinci mühüm meyar davranış motivlərinin məhz dərk olunması, onların sosial normalarla şüurlu surətdə şərtlənməsini nəzərdə tutur". (9, səh.56)

Şəxsiyyətin ikinci dövründə mənlik şüuru formalaşır və "Mən-konsepsiya" əmələ gəlir. Mənlik şüuru çox cəhətlidir, lakin onun strukturunda iki cəhət-"Mən-obrazı" və özünə münasibət xüsusi yer tutur.

Mənlik şüurunun üç başlıca funksiyası vardır: özünüdərketmə, özünütəkmilləşdirmə və həyatın mənasının axtarılması. Mənlik şüurunun şəxsiyyətin formalaşmasında rolu böyükdür.

Şəxsiyyətin əsas əlamətləri:

1. Şəxsiyyətdə şüur olmalıdır.
2. Şəxsiyyətdə nitq qabiliyyəti olmalıdır.
3. Şəxsiyyət keçmiş təcrübəni mənimsəyi bacarmalıdır.
4. Şəxsiyyət keçmiş təcrübəni başqalarına ötürməyi bacarmalıdır.
5. Şəxsiyyət sosial mühiti yaxşılaşdırmağı düşünməli və buna uyğun hərəkət etməlidir.

Hər bir insan fərd kimi dünyaya gəlir, yəni bioloji xüsusiyyətlərə malik insan kimi doğulur, keçən zaman müddətində o inkişaf edərək şəxsiyyətə çevrilir.

Şəxsiyyətin pedaqoji-psixoloji xüsusiyyətləri: Şəxsiyyət ətraf mühitin qanunları əsasında formalaşmağa başlayır. İnsanın onu əhatə edən ətraf mühiti öyrənməsi uzun müddəti əhatə edən bir prosesdir. Bu öyrənmə prosesi şəxsdə doğulduğu gündən

həyatının sonunadək davam edir. Uşaq bir yaş yarımdan sonra “mən”anlayışını anlamağa başlayır və daima özünü başqaları ilə müqayisə edir və bunun nəticəsində sosiallaşaraq formalaşır. Şəxsiyyətin başqa şəxsiyyətlərlə əlaqəsi özünü dərk edə bilməsi üçün önəmli faktordur. Belə əlaqələr əsasən sosial mühitdə qrup daxilindəyaranır. Sosial mühit insanın formalaşdığı dövrdə güzgü rolunu oynayır.

Şəxsiyyətin strukturu: Şəxsiyyətin strukturuna şəxsiyyətin sabitliyi, şəxsiyyətin tamlığı və şəxsiyyətin fəallığı daxildir.

1) Şəxsiyyətin sabitliyi: Şəxsiyyətin sabitliyi onun davranışlarının öncədən müəyyən edilməsinə kömək edir.

2) Şəxsiyyətin tamlığı: İnsan hər hansısa qarşısına qoyduğu bir məqsədə çata bilmək üçün bütün cəhətləri bir-biri ilə əlaqədə olur.

3) Şəxsiyyətin fəallığı: Şəxsiyyətin fəallığı çox aktiv hərəkət əsasında ortaya çıxır və şəxsiyyətə özünü inkişaf etdirməkdə kömək edir.

Şəxsiyyətin inkişafı ilə bağlı əsas konsepsiyalar: Şəxsiyyətin inkişafında bioloji istiqamət, sosioloji istiqamət və biososial istiqamət xüsusi rol oynayır.Bioloji istiqamətin nümayəndəsi Z.Freyd (1856-1939) və başqaları şəxsiyyəti təbii varlıq hesab etmiş və onun özünə xas olan bütün davranışlarının anadan gəlmə olduğu və instinktlərlə əlaqəsi olduğunu vurğulamışlar.

Sosioloji istiqamətin nümayəndələri insanın bioloji varlıq kimi doğulduğunu qəbul edərək, ünsiyyətdə olduğu sosial qrupun təsiri ilə sosiallaşması fikrinin müdafiəçiləri olmuşlar.

Biososial istiqamətin nümayəndələrinə görə isə, psixi proseslərin bioloji təbiəti olsa da, şəxsiyyətin təcrübəsi, maraqları, qabiliyyətləri və s. sosial hadisələr kimi formalaşır. (9, 57)

Şəxsiyyətin inkişafında irsiyyətin rolu

Şəxsiyyətin formalaşması və inkişafı üçün irsiyyət, mühit və tərbiyənin rolu böyükdür.

İrsiyyət nə deməkdir? İrsiyyət valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin irsən keçməsidir. Fiziologiyada sübut olunmuşdur ki, insanların bir çoxunda irsi imkanlar normada olduğu halda onların psixoloji inkişaflarıda oxşardır.

Məsələn, eyni yaş dövründə eyni şəraitdə inkişaflarını tamamlayan insanların psixoloji xüsusiyyətləri bir-birinə oxşar olur. İrsiyyətin daşıyıcısı bildiyimi kimi genlərdir. Orqanizmin xassələri haqqında bütün məlumatlar bu genlər vasitəsiylə valideynlərdən uşaqlara keçir. Valideynlərdən uşaqlara həm fiziki əlamətlər (bədən quruluşunun xüsusiyyətləri, saç rəngi, göz rəngi və dərinin rəngi və s.), həm də fizioloji əlamətlər (sinir sisteminin xüsusiyyətləri, sinir hüceyrələrinin sayı, psixi pozğunluqlar yarada biləcək patoloji qüsurlar, bəzi xəstəliklər – hemofiliya, şəkər və s.) irsən keçir.

Bunuda qeyd etmək lazımdır ki, anadangəlmə əlamətlərin hamısı irsi hesab edilə bilməz. Bu əlamətlərin bəziləri ana bətnində daxili və xarici mühitin təsiri nəticəsində yarana bilər. İrsi əlamət anadangəlmə əlamətlərdən fərqli olaraq bir nəsildə deyil, bir çox nəsillərdə üzə çıxaraq mühitin təsirinə davamlı olur. Anadangəlmə əlamətlər isə bir nəsildə müşahidə edilərək gələcək nəsildə görünməyə bilər.

Şəxsiyyətin inkişafında mühitin rolu

Şəxsiyyətin inkişafına mühit mənəvi istiqamətdə əhəmiyyətli təsir göstərən amildir. Sosial mühit şəxsiyyətin inkişafına birbaşa deyil, həyat tərzi vasitəsilə təsir göstərir. Əgər belə hal olmasaydı, mühitin təsiri hamıya eyni cür olardı. Eyni mühit daxilində hərənin özünə məxsus həyat tərzi vardır.

Şəxsiyyətin inkişafında tərbiyənin rolu

Şəxsiyyətin inkişafında tərbiyənin rolu əhəmiyyətlidir. Hələ antik dövrün filosofu Platon deyirdi ki, "insanı düzgün tərbiyə etsək, o, ən sakit və ilahi məxluq olar. Əgər onu tərbiyə etməsələr və ya yanlış tərbiyə versələr, o zaman o, yer üzərində olan heyvanların ən vəhşisi olar." (10, 58)

İngilis filosofu Con Lokk isə "Ağ lövhə" nəzəriyyəsini irəli sürmüş və qeyd etmişdir ki, insan doğularkən "Ağ lövhə" kimi doğulur. Bu lövhəyə insanın yaşadığı müddət nə yazılarsa, insan da elə inkişaf edəcəkdir. Şəxsiyyətin inkişafında ailəsindən aldığı tərbiyə il yanaşı bağça, məktəb və ətraf mühitdən aldığı tərbiyənin də, rolu böyükdür. Ailəsində aldığı tərbiyədə əsas vəzifə ana-atanın üzərinə düşür. Hər bir şəxs ailədə gördüyü tərbiyəni cəmiyyətdə nümayiş etdirir.

Şəxsiyyətin inkişafında müxtəlif fəaliyyət növlərinin rolu

Şəxsiyyətin inkişafında müxtəlif fəaliyyət növlərinin rolu böyükdür. Bunlara nəzər yetirsək:

1. Vasitəsiz emosional ünsiyyət və münasibət.

2 Əşyavi-manipulyativ fəaliyyət.

3. Oyun fəaliyyəti.

4. Təlim fəaliyyəti.

5. Əmək fəaliyyəti.

6. Ünsiyyət fəaliyyəti (11, 59)

Vasitəsiz emosional ünsiyyət

Yeni doğulmuş körpənin anası ilə özünəməxsus dialoqudur. Körpə anasının qucağında sakitləşir, qoxusunu hiss edir və bundan xoşu gəlir. Bu hiss bioloji cəhətdən inkişafa güclü təsir göstərən amildir.

Əşyavi-manipulyativ fəaliyyət

Bu prosesdə uşaq əşyaları dağıdaraq, hissələrər ayıraraq onları dərk etməyə çalışır və inkişaf edir.

Oyun fəaliyyəti

Şəxsiyyətin inkişafında oyun fəaliyyəti önəmlidir əsasən məktəb dövrünə qədər uşağın əsas fəaliyyət növü oyundur. A.S.Makarenkonun dediyi kimi, “yaşlı adamların həyatında əmək nə qədər vacib və əhəmiyyətlidirsə, uşaqların da həyatında oyun bir o qədər vacib və əhəmiyyətlidir”. Yeniyetməlik dövründə isə oyun fəaliyyətinin yerini maraq və məşğuliyyətlər tutur. Məsələn, boş zamanlarını səmərəli keçirmək üçün dostlar ilə oynanılan futbol, tennis, basketbol və ya üzmək, musiqi dinləmək, məntiqi testlər əhatə edir.

Təlim fəaliyyəti

Uşağın məktəbə daxil olması anından onun üçün yeni fəaliyyət növü- təlim fəaliyyəti başlamış olur. Təlim bilik, bacarıq və vərdiş qazanmağa yönələrək şagirdin əsas fəaliyyət növüdür. Təlim müəllimin köməyi ilə qarşılıqlı münasibət nəticəsində, müəyyən vaxt və sabit zaman çərçivəsində şagirdlərin əhatəsində sinif şəraitində həyata keçirilir. Yeniyetməlik dövründə şagirdlər çox həssas olur, müstəqilliyə can atırlar.Bu müstəqilliyi əldə edə bilmək üçündə özlərinə müəllimlərini nümunə

götürürlər. Məhz buna görə də, müəllimlər daima öz danışıq və davranışlarına fikir verməli, daima nəzarətdə olmalı, yeniyetmələrə düzgün nümunə olmağa çalışmalıdırlar.

Əmək fəaliyyəti

Əmək fəaliyyəti bir növ tapşırıqların yerinə yetirilməsi kimi qeyd edilə bilər.Şəxsiyyətin inkişafında əmək fəaliyyəti şəxsi tərbiyə edir, inkişaf etdirir və yaşadır.  Yəni ki, əmək fəaliyyəti çərçivəsində verilən tapşırıqların qarşılığında şəxs çox zaman maddi olaraq gəlir eldə etdiyi üçün əmək fəaliyyəti şəxsin həyatda qalması, öz arzu və istəklərini həyata keçirməsi, öz gələcəyi ilə bağlı planların qurulmasında əhəmiyyətli rola malikdir.

Ünsiyyət fəaliyyəti

Şəxsiyyətin inkişafı və formalaşmasında ünsiyyətin rolunun vacib olduğu qeyd edilməlidir. Bununla bağlı bir çox məqalələr yazılaraq şəxsiyyətin inkişafında ünsiyyətin rolu izah olunur. Ünsiyyət şəxsin həm özünü sosial mühitdə tanıtmasına, həm də sosial mühitdə əlaqələr qurmasına kömək edir. Ünsiyyət dost mühitində, məktəb mühitində, iş şəraitində önəmli rol oynayır. Kollektivdə qarşılıqlı təsir məhz ünsiyyətin köməyi ilə yaranır.İşgüzar görüşlərdə şəxslərarası fikir mübadiləsi, işin gedişi və nəticənin ortaya qoyulması üçün ünsiyyət əsas faktordur.

# II. FƏSİL. YENİYETMƏLİK DÖVRÜNDƏ YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

## 2.1 Yeniyetməlik dövründə yaşanan psixoloji hallar və yaş böhranı

İlk öncə yaş böhranın nə olduğuna aydınlıq gətirmək lazımdır. İnkişafın bütün dövrlərində böhran olduğu kimi yeniyetməlik dövründə də, yaş böhranı özünü biruzə verir. Yeniyetməlik dövründə yaranan yaş böhranı 2 formada nəzərə çarpır:

Müstəqillik böhranı

Asılılıq böhranı

Yeniyetməlik dövründə müstəqillik böhranı daha geniş yayılmışdır. Onun əsas xarakterik əlamətləri yeniyetmələrdə özünü inadkarlıq, tərslik, her şeyə neqativ münasibət göstərən, özbaşınalıq, qısqanclıq kimi biruzə verir. Bir nümunə ilə izah etsək, 3 yaşındakı uşaq öz oyuncaqlarını başqa uşaqlarla bölüşmürsə qısqanclıq edirsə, bu hal yeniyetməlik dövründə şəxsi əşyalarına heç kimin toxunmasına icazə verməmək, otağına kənar şəxsin girişinə qadağa qoymaqla özünü göstərir.

Aslılıq böhranı isə yuxarıda qeyd etdiklərimizin əksi olaraq yeniyetməlik dövründə şəxsdə həddindən artıq anlayışlı söz dinləyən, başqasının təsiri altına rahatlıqla düşən, özündən böyüklərin sözüylə hərəkət edən formada özünü biruzə verir. Onu da nəzərə almaq lazımdır ki, böhranlı dövrlərdə ailədə narahatlıq törətməyən uşaqlar belə diqqət mərkəzində olmalı və psixoloqlardan psixoloji dəstək almalıdırlar. Bir sözlə, bu dövrdə yeniyetmələri başa düşməyi bacarmalı və onlara vaxtında kömək göstərmək lazımdır.

Yeniyetməlik dövründə yeniyetmədə özünü biruzə verən hisslər:

Qorxu

Yeniyetməlikdə qorxu hissi uşaqlıq dövründə yaşanan hallar ilə oxşardır. Yeniyetmələr üçün xüsusilə “bilinməyən” şeylər qorxunun əmələ gəlməsinə səbəb olur. Yeniyetmənin maraq göstərdiyi fəaliyyətlərin nəticəsini təxmin edə bilməməsi də onun qorxmasına səbəb ola bilər.

Yeniyetməlikdə qorxu hissi üç mərhələdə baş verə bilər:

1.Obyektlərə qarşı hiss edilən qorxular: it, pişik, siçan, arı, lift, təyyarə, yüksəklik, qaranlıq və sairə.

2. Sosial münasibətlərə qarşı hiss edilən qorxular: digər insanlarla tanış olmaq, cəmiyyət qarşısında danışmaq, özlərindən yaşca böyük olan mühitdə yer almaq və s.. Bu cür sosial qorxu özünü utancaqlıq və susqunluq şəklində biruzə verə bilər.

3. Yeniyetmənin özü ilə əlaqəli qorxuları: maddi çətinlik, ölüm, ailə tərəfindən qəbullanmama, özünün və ya ailəsindən bir fərdin ciddi bir xəstəliyə tutulması, məktəb həyatında və ya işində uğursuzluğa məruz qalması yeniyetmədə qorxu yarada biləcək amillərdəndir. Yeniyetmə qorxu vəziyyətində mövcud stiuasiyadan qaçma, halsızlıq, titrəmə, tərləmə kimi fiziki hadisələrlə qorxduğunu büruzə verir. Yaş artdıqca, ətraf mühitlə olan münasibətlər artdığına görə nəticə etibari ilə qorxuların yavaş-yavaş azaldığı görünür.

Həyəcan

Həyəcan real səbəbdən çox, xəyali səbəblər nəticəsində əmələ gələn qorxu tipidir. Ümumiyyətlə, həyəcan qorxudan daha uzun zamanı əhatə edir. Həyəcan, keçmişlə bağlı olub gələcək fəaliyyətdə də, şəxsdə özünü biruzə verə biləcək bir haldır.

Qəzəb

Yeniyetməlik dövründə qəzəbə səbəb olan hadisələr, ümumiyyətlə, sosial tərkibli hadisələrdir.Yeniyetmənin sözləri, istəkləri ailədə valideynləri tərəfindən qəbul edilməsə, əgər yeniyetməyə lağ edilərsə, ona yalan danışılarsa, sosial çevrəsində sayılmazsa onda qəzəb halları baş verə bilər.

Ruh düşkünlüyü

Əgər yeniyetmənin arzu və məqsədinin qarşısına xarici və ya daxili maneələr çıxarsa, o zaman yeniyetmədə ruh düşkünlüyü baş verəcək. Belə psixoloji halların bir qismi qəzəbdən, amma əksəriyyəti psixoloji gərginlik və sıxıntı hallarından meydana gəlir. Ruh düşkünlüyü yaşayan yeniyetmə üzüntülərini insanlara göstərməklə ətraf mühitin diqqətini cəlb etmək və onlardan diqqət görmək istəyir. Ruhi sarsıntı keçirən yeniyetmələrdə depressiyanın ağır formaları yaranarsa və psixoloji dəstək almazsa, yeniyetmə intihar edə bilər. Belə hallarnan qarşılaşmamaq üçün yeniyetməlik

